● Şəhidlər ölməz, Vətən bölünməz

# Bir Azərbaycanımız var

**Hər gün diqqətimiz cəbhədən gələn xəbərlərə dikilir. Böyüklü-kiçikli hamımız bu xəbərləri həyəcanla izləyirik. Elə sözümüz, söhbətimiz də yalnız cəbhə ilə bağlıdır. Ordumuzun zəfər yürüşü barədə xoş xəbərlər bizi ruhlandırır, içimizdəki vətən sevgisini daha işıqlı edir.**

Mən şəhid ailəsiyəm. Həyat yoldaşım Zakir Sultanovun Qarabağ savaşı başlayanda 30 yaşı vardı. Heç yadımdan çıxmaz: evə gəlib diqqətlə mənə baxdı. Dedim ki, nə baş verib? “Döyüşə gedirəm”, - dedi. Evdən çıxıb getdiyi həmin gün də gözlərim önündədir. 1994-cü ilin fevralında Füzuli istiqamətində gedən döyüşlərdə həlak olan Zakir Qusara şəhid kimi döndü.

O dövrdən çöx keçib. Tək Zakirin deyil, minlərlə azərbaycanlı şəhidin qanı alınmalıydı. Bu gün müzəffər ordumuzun erməni qəsbkarlarını vətənimizdən qovması ilə intiqamımz alınır. İşğalçılar bizə çox bəlalar yaşadıblar - Xocalı soyqırımı, işğal olunan rayonlar, dinc əhalinin qətli - deməklə qurtarası deyil.

Qusarda millətindən asılı olmayaraq hər kəs bir nəfər kimi Ali Baş Komandanın arxasındadır. Rayonumuzda hətta şəhid analarından könüllü cəbhəyə getmək istəyənlər var. Çünki yaxşı gündə də, çətin gündə də yalnz bir Azərbaycanımız var.

Mən özüm ləzgi qızıyam. Bu gün yaxın qohumlarımızdan cəbhədə olan çoxdur. Biz erməni terrorçularının Gəncəyə, Mingəçevirə, Tərtərə və digər yaşayış mənqətələrimizə atdığı mərmi və raketlərdən ölən və yaralananları eşidəndə bir daha erməni işğalçılarının iç üzünü görürük. Kiçik körpələrə qıyan bu faşistlərin vətən torpaqlarından qovulacağı günə bizi qovuşduran Ali Baş Komandana isə bildirmək istəyirik ki, nə yaxşı varsınız! Sizin Vətən tarixinə yazacağınız Qələbə gününü hamımız səbirsizliklə gözləyirik. Bax, o zaman torpaq altda yatan şəhidlərimizin ruhu nur kimi vətən göylərinə səpiləcək. Onda ağrı da azalacaq, dərd də, qəm də yaddan çıxacaq. Təki, bayrağımız Qarabağın hər guşəsində dalğalansın, əsgərlərimiz qələbə ilə geri dönsünlər!




***Sevda SULTANOVA,***
***Qusar***

Azərbaycan.- 2020.-21 oktyabr.- S.10.